# “İTALDİZAYN”
# Qapalı Səhmdar Cəmiyyəti

## 31 dekabr 2023-cü il tarixinə

## MALİYYƏ HESABATLARI VƏ MÜSTƏQİL AUDİTOR RƏYİ

# MÜQAVİLƏ №_001/24

## AUDİTOR XİDMƏTİ BARƏDƏ

**Bakı şəhəri**

**"18" aprel 2024-cü il**

Bundan sonra "İcraçı" adlandırılacaq Sərbəst Auditor Seyidov Elnur Sabir oğluna (VÖEN: 1005050162) verilmiş 28.12.2022-ci il tarixli SA/374 saylı lisenziyaya əsasən : Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən bir tərəfdən və bundan sonra "Sifarişçi" adlandırılacaq "İTALDİZAYN" Qapalı Səhmdar Cəmiyyətinin (VÖEN: 1500032761) direktoru Rzayev Mirsəid Ağakamal oğlu şəxsində ikinci tərəfdən, auditin aparılması barədə aşağıdakı müqaviləni bağladılar:

### *1. Müqavilənin məzmunu və tərəflərin cavabdehliyi*

1.1. "Sifarişçi" tapşırır, "İcraçı" isə aşağıdakı auditor xidmətlərinin göstərilməsini öz öhdəsinə götürür:

"İTALDİZAYN" Qapalı Səhmdar Cəmiyyətinin 2023-cü il üzrə maliyyə hesabatlarının auditin aparılması.

1.2. Göstərilmiş xidmətlərin nəticəsini "İcraçı" rəylə rəsmiləşdirir.

### *2. Tərəflərin hüquq və vəzifələri*

2.1. "İcraçı"nın hüquq və vəzifələri:

-bağlanmış müqavilənin şərtinə uyğun olaraq göstəriləcək xidmətin forma və metodlarını sərbəst müəyyən etmək;

-sifarişçinin rəhbərliyindən və işçilərindən yazılı izahat almaq;

-xidmətin göstərilməsi ilə əlaqədar müqavilə əsasında başqa auditorları (ekspert və ya mütəxəssiləri ) cəlb etmək;

- göstəriləcək xidmətin məzmunu (şərti) ilə əlaqədar olaraq lazımi sənədlərin təqdim edilməməsi hallarında xidmət göstərilməsindən imtina etmək;

-auditin aparılmasında qanunvericiliyin tələblərinə riayət etmək;

-auditin aparılması zamanı aşkar edilmiş bütün pozuntular, çatışmazıqlar və nöqsanlar barədə sifarişçinn rəhbərliyinə məlumat vermək;

-xidmətin göstərilməsi ilə əlaqədar əldə edilən məlumatları (məhkəmə orqanlarının tələb etdiyi hallar istisna olmaqla) məxfi saxlamaq;

-alınmış və ya tərtib edilmiş sənədlərin qorunub saxlanmasını təmin etmək.

2.2. "Sifarişçi"nin hüquq və vəzifələri:

-xidmətin göstərilməsi ilə bağlı qeyri-qanuni hərəkətləri və meydana çıxan əmlak xarakterli mübahisələrlə əlaqədar Auditorlar Palatasına və məhkəməyə müraciət etmək;

-göstərilən xidmətlərlə bağlı qanunvericiliyin tələbləri, tərəflərin hüquq və vəzifələri, habelə qiymətləndirmənin rəsmiləşdirilmiş olduğu sənədlərdə əks edilmiş irad və nəticələr üçün əsas olan normativ aktlar barəsində ətraflı məlumat almaq;
-xidmət göstərilərkən aşkar edilmiş pozuntular və nöqsanlar barədə məlumat almaq;
-xidmət göstərilərkən auditora təqdim olunmuş sənəd və məlumatların qorunması və məxfi saxlanmasını tələb etmək;
- müqavilədə nəzərdə tutulan xidmətin göstərilməsi üçün zəruri olan bütün sənədləri, registrləri və hesabatları auditora vaxtında təqdim etmək;
-Auditorun sorğusuna dair yazılı və şifahi izahatlar vermək.

### 3. *İşlərin dəyəri və hesablaşma qaydaları*

3.1. "Sifarişçi" bu Müqavilədə göstərilən xidmətlərinə görə "İcraçı"ya 22000.00 (iyirmi iki min manat 00 qəpik) AZN xidmət haqqı ödəyir.

3.1.1 "Sifarişçi" müqavilənin 3-cü maddəsində müəyyən olunmuş məbləği "İcraçı"ya aşağıdakı qaydada ödəyir:

- Tərəflər müqaviləni imzaladığı tarixdən etibarən 10 (on) iş günü ərzində məbləğin 50%-ni avans;
- Yoxlamanın yekun məlumatları təqdim olunduqdan və təhvil-təslim aktı imzalandıqdan sonra müqavilə məbləğinin 50%-i həcmində son ödəniş;

3.2. "Sifarişçi" bu müqavilədə nəzərdə tutulan məbləği aşağıdakı qaydada ödəməlidir:

3.2.1. Müqavilənin valyutası – Azərbaycan manatı.

3.2.2. Bu Müqavilə üzrə ödənişlər "Sifarişçi" tərəfindən "İcraçı"nın bu Müqavilədə göstərilmiş hesabına köçürülə ya da nağd formada ödənilə bilər.

3.3. "Sifarişçi" tərəfindən əsassız olaraq müqavilə və yaxud müqavilənin şərtləri pozularsa, ödənilmiş məbləğ geri qaytarılmır.

3.4. "Sifarişçi" göstərilən xidmətin vaxtında ödənilməmiş dəyərinin gecikdirilmiş hər günü üçün 05% həcmində penya ödəyir.

### 4. *İşlərin təhvili və qəbulu qaydası*

4.1. Müqavilə üzrə işlər başa çatdırıldıqdan sonra qanunvericiliklə müəyyən edilmiş qaydada rəsmiləşdirilmiş sənədlərin "Sifarişçi"yə təqdim edilməsi təhvil-qəbul aktı vasitəsilə həyata keçirilir.

4.2. Təhvil-qəbul aktını alan "Sifarişçi" ən çoxu 30 gün müddətində yoxlama aktı ilə tanış olmalı və heç bir etirazı olmazsa, imza edib İcraçıya qaytarmalıdır.

4.3. "Sifarişçi"nin əsaslandırılmış etirazı olarsa, bu barədə hər iki tərəfin imzası ilə akt tərtib edilir və orada başa çatdırılacaq işlərin siyahısı və icra müddəti göstərilir.

4.4. Başa çatdırılacaq işlər vaxtından əvvəl yerinə yetirilərsə, Sifarişçi onu vaxtından əvvəl qəbul edir və dəyərini razılaşdırılmış qiymətlə ödəyir.

### 5. *Tərəflərin məsuliyyəti və öhdəliyi*

5.1. "Sifarişçi" "İcraçı"ya xidmət göstərilməsi üçün təqdim etdiyi bütün sənədlərin, o cümlədən yazılı və şifahi izahatların düzgünlüyünə məsuliyyət daşıyır.

5.2. "Sifarişçi" və "İcraçı" öhdəliyi tam və ya qismən yerinə yetirmədikdə qüvvədə olan qanunvericiliyə və bağlanmış müqavilənin şərtlərinə görə məsuliyyət daşıyırlar.

5.3. “İcraçı” tərəfindən xidmət vaxtında göstərilməzsə, bağlanmış müqavilənin şərtlərinə görə, “İcraçı” gecikdirilən hər gün üçün xidmət haqqının 05%-i həcmində cərimə ödəyir.

5.4. Bu müqavilənin 8.3 bəndində göstərilən şərtlər pozularaq yerinə yetirilmiş iş “Sifarişçi” tərəfindən vaxtında qəbul edilməzsə, gecikdirilən hər gün üçün “Sifarişçi” xidmət haqqının 05%-i həcmində cərimə ödəyir.

### 6. *Məxfilik*

6.1. Tərəflər bağlanmış müqavilənin mövcudluğu, məzmunu və müqavilənin bağlanması üçün zəruri olan sənədləri məxfi saxlamaqla, tərəf müqabilinin rəsmi razılığı olmadan üçüncü tərəfə heç bir məlumat vermir.

“İcraçı” aşkar edilən fakt və məlumatlardan “Sifarişçi”nin yazılı razılığı olmadan hər hansı bir məqsəd üçün istifadə edə bilməz.

6.2. “İcraçı” onun təqsiri üzündən olmayan səbəblərə görə yayılmış məlumatlara görə və ümumi xarakterli məlumatların yayılması üçün məsuliyyət daşımır.

### 7. *Mübahisələrin həlli*

7.1. Bağlanmış müqavilə şərtləri üzrə tərəflər arasında hər hansı bir mübahisə və ya fikir ayrılığı danışıqlar vasitəsi ilə həll edilməzsə, qüvvədə olan qanunvericiliyə uyğun həll edilir.

### 8. *Müqavilənin vaxtından əvvəl dayandırılması*

8.1. Tərəflərdən hər hansı biri aşağıda göstərilən səbəblər olarsa rəsmi məktub vasitəsilə müqavilənin icrasını dayandıra bilər:

a) ödəmə qabiliyyəti olmazsa, imkansız, ləğv edilmə və ya yenidən təşkil etmə hallarında;

b) işgüzar fəaliyyətin dayanması və ya ona maneəçilik təhlükəsi olduqda;

8.2. Tərəflərdən biri müqavilə şərtlərinin pozarsa və ya buraxılmış nöqsanları ikinci tərəfin tələbi ilə 3 gün ərzində aradan qaldıra bilməzsə, ikinci tərəf rəsmi məktubla müqavilənin icrasını dayandıra bilər.

8.3. Əgər bağlanmış müqavilə 8.1 və 8.2-ci bəndlərə əsasən pozularsa, göstərilmiş faktiki xidmətin dəyəri “Sifarişçi” tərəfindən yerinə yetirilmiş işin həcminə dair tərtib edilmiş akta əsasən ödənilir.

### 9. *Fors-major şəraiti*

9.1. Fors-major şəraitində müqavilə üzrə götürülən öhdəliyin yerinə yetirilməsi qeyri-mümkün ola bilər.

9.2. Fors-major şəraitinin mövcud olması ilə əlaqədar tərəflərdən biri ekstremal şəraitdədirsə və müqavilə öhdəliyini vaxtında yerinə yetirə bilmirsə, fors-major şəraiti qurtaranadək öhdəliyin yerinə yetirilməsindən o halda azad edilir ki, ikinci tərəfə dərhal fors-major şəraitinin mövcudluğuna dair rəsmi məktub göndərmiş olsun.

*10. Digər şərtlər*

10.1. "İcraçı" müqavilə öhdəliyini yerinə yetirilmək məqsədilə lazım olan auditorları cəlb edir.

10.2. Müqavilədə yerinə yetirilən işin dəyəri yalnız bu müqavilə üçün olmaqla, gələcəkdə bağlanılacaq eyni adlı ikinci müqaviləyə şamil edilmir və rəqabət üçün istifadə edilə bilməz.

*11. Müqavilənin fəaliyyət müddəti*

11.1. Bu müqavilə Tərəflər imzaladıqdan sonra qüvvəyə minir və 1 (bir) il müddətinə öz qüvvəsini saxlayır.

***12. TƏRƏFLƏRİN ÜNVANLARI VƏ BANK REKVİZİTLƏRİ:***

**İCRAÇI:**
Sərbəst Auditor Seyidov Elnur Sabir oğlu
VÖEN: 1005050162

**Bank rekvizitləri:**
Bank: "Kapital Bank" ASC-ni Mərkəz Filialı
Kod: 200026
VÖEN: 9900003611
SWIFT: AIIBAZ2XXXX
H/h: AZ63AIIB41040019441004406102
M/h: AZ37NABZ01350100000000001944

Azərbaycan Respublikasının Auditorlar Palatası
Elnur Sabir oğlu Seyidov
Sərbəst auditor
Independent Auditor
VÖEN: 1005050162
Chamber of Auditors of Azerbaijan Republic

**/E.S.Seyidov/**
**M.Y.**

**SİFARİŞÇİ:**
"İTALDİZAYN" Qapalı Səhmdar Cəmiyyəti
VÖEN: 1500032761

**Bank rekvizitləri:**
Bank: "ABB Bank" Nəsimi filialı
Kod: 805614
VÖEN: 9900001881
SWIFT: İBAZAZ2X
H/h: AZ74IBAZ40060019449720672207
M/h: AZ03NABZ01350100000000002944

**/M.A.Rzayev/**
**M.Y.**

# "İTALDİZAYN" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyinə

## Maliyyə hesabatlarının auditinə dair

## Rəy

**Bakı şəhəri**

**28 iyun 2024-cü il**

Biz "İTALDİZAYN" Qapalı Səhmdar Cəmiyyətinin 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışam.

Hesab edirəm ki, qoşma maliyyə hesabatları Şirkətın 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**Müsbət Rəy üçün əsaslar**

Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (IESBA məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu və IESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.
Audit zamanı təqdim olunmuş sənədlərdə əsas kimi götürülmüş təsdiqedici materiallar yoxlanılmış, habelə sifarişçi-təsərrüfat subyektinin tətbiq etdiyi uçot prinsipləri qiymətləndirilmişdir. Hesab edirik ki, yerinə yetirilmiş audit prosedurları nəticəsində müsbət rəy vermək üçün kifayət qədər auditor sübutu toplamışıq.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Şirkətı ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Şirkətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Mənim məqsədim maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi mən audit aparılan zaman peşəkar mühakimə tətbiq edirəm və peşəkar inamsızlıq nümayiş etdirirəm. Mən həmçinin:

- Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndirirəm, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçirirəm və rəyimi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirəm. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.

- Şirkətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürəm.

- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndirirəm.

- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə ediməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Şirkətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarıram. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığım halda, auditor hesabatımda maliyyə hesabatlarındakı əlaqəli əlumatların açıqlanmasına diqqət yetirməliyəm və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimə dəyişiklik etməliyəm. Nəticələrim auditor hesabatımın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Şirkətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.

- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndirirəm.

Mən subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığım zaman daxili nəzarətdə aşkar etdiyim əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririrəm.

Mən həmçinin subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə bəyanat verirəm ki, müstəqilliyə və müstəqilliyimə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və digər məsələlərə, habelə müvafiq olduğunda əlaqəli qorunma tədbirləri haqqında məlumat verməyimə dair müvafiq etik normalarına riayət etmişəm.

Şirkətin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin nəzərinə çatdırılmış məsələlərdən mən cari dövr üzrə maliyyə hesabatlarının ən əhəmiyyətli və bu səbəbdən əsas audit məsələləri olanları müəyyən edirəm. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya, çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat vermənin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandırılmş şəkildə güman edildiyinə görə mən bu məsələ haqqında hesabatımda məlumatın verilməməsini qərara almadığım halda, mən bu məsələləri auditor hesabatında təsvir edirəm.

**Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən verilmiş**

**Lisenziya: SA/374** **28.12.2022-ci il**

**Azərbaycan Respublikasının Auditorlar Palatasının Sərbəst Auditoru:**

Azərbaycan Respublikasının Auditorlar Palatası · Elnur Sabir oğlu Seyidov · Sərbəst auditor · Independent Auditor · VÖEN 1005050162 · Chamber of Auditors of Azerbaijan Republic

**Seyidov Elnur Sabir oğlu**

# Audit Məktub-Tapşırığı

**"İTALDİZAYN" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyinə:**

**Bakı şəhəri**

**28.06.2024-cü il**

Siz cari ilin əvvəlində bizdən "İTALDİZAYN" Qapalı Səhmdar Cəmiyyətinin 2023-cü il üzrə təqdim edilən balans hesabatı və həmin tarixdə tamamlanan il üzrə mənfəət və zərər hesabatı, kapitalda dəyişikliklər hesabatı və pul vəsaitlərinin hərəkəti hesabatından, eləcə də əsas uçot prinsiplərinin xülasəsindən və digər izahedici qeydlərdən ibarət olan maliyyə hesabatlarının auditini keçirməyi xahiş etmişsiniz. Hazırkı məktub əsasında auditin keçirilməsinə razılıq verdiyimizi və həmin tapşırığı qəbul etdiyimizi bildiririk. Audit maliyyə hesabatlarına dair rəyin bildirilməsi məqsədilə aparılacaqdır.

Audit prosesi Beynəlxalq Audit Standartlarına müvafiq aparılacaqdır. Standartlar audit prosesinin maliyyə hesabatlarında əhəmiyyətli təhriflərin olub-olmadığını müəyyən etmək üçün əsaslı təminat əldə etmək məqsədilə planlaşdırılmasını və icrasını tələb edir. Bizim audit işimiz test əsasında yoxlamadan, hesabları və maliyyə hesabatlarını təmin edən sübutların əldə edilməsindən ibarət olacaqdır. Eyni zamanda, auditə rəhbərlik tərəfindən istifadə edilən uçot qaydalarının, eləcə də maliyyə hesabatlarının ümumi təqdimatının qiymətləndirilməsi daxildir.

Müəyyən mühasibat və daxili nəzarət sisteminin məhdudiyyətləri ilə birlikdə, auditin test mahiyyəti və bir sıra digər daxili məhdudiyyətlərinin olması səbəbi ilə əhəmiyyətli təhriflərin aşkar edilməməsi üzrə qaçılmaz risk mövcuddur.

Maliyyə hesabatları üzrə hesabatımıza əlavə olaraq, mühasibat uçotunda və daxili nəzarət sistemlərində diqqətimizi cəlb edən əhəmiyyətli nöqsanlara dair Sizi ayrıca məktubla təmin edəcəyik.

Nəzərinizə çatdırırıq ki, tələblərə cavab verən maliyyə hesabatlarının hazırlanma cavabdehliyi cəmiyyətin rəhbərliyinin üzərinə düşür. Bura müvafiq mühasibat qeydlərinin saxlanması, uçot siyasətinin seçilməsi və tətbiqi və eləcə də, cəmiyyətin aktivlərinin qorunması daxildir. Audit prosesinin bir hissəsi olaraq, biz rəhbərlikdən auditlə bağlı edilmiş təqdimata dair yazılı razılıq tələb edəcəyik.

Sizin işçi heyətinizlə əməkdaşlıq etməyə hazırıq və onların auditlə bağlı lazım olan bütün hesabatları, sənədləşmələri və sair məlumatı təmin edəcəklərinə inanırıq. Ödəniş haqqı tərəflər arasında bağlanmış müqavilə əsasında müəyyən ediləcəkdir.

Hazırkı məktub ləğv edilməzsə, düzəlişlər aparılmazsa və ya başqası ilə əvəz edilməzsə gələcək illərdə etibarlı sayılır.

Maliyyə hesabatları auditinin təşkilinin sizin razılığınıza müvafiq olmasını təsdiq etmək üçün verilən məktuba əlavə edilən nüsxəni imzalamağınızı və geri qaytarmağınızı xahiş edirik.

**Sərbəst Auditor:** Azərbaycan Respublikasının Auditorlar Palatası / Elnur Sabir Seyidov / Sərbəst auditor / Independent Auditor / VÖEN: 1005050162 / Chamber of Auditors of Azerbaijan Republic **Seyidov Elnur Sabir oğlu**

**"İTALDİZAYN" Qapalı Səhmdar Cəmiyyətinin rəhbəri:**

**Rzayev Mirsəid Ağakamal oğlu**

# Rəhbərliyin Məlumatları

**"İTALDİZAYN" Qapalı Səhmdar Cəmiyyətinin direktoru**
**Rzayev Mirsəid Ağakamal oğlu**

**Bakı şəhəri** **28.06.2024-cü il**

Bu məktub maliyyə məlumatlarından ibarət maliyyə hesabatlarının, "İTALDİZAYN" Qapalı Səhmdar Cəmiyyətinin 2023-cü il üzrə Beynalxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq təqdim edilən balans hesabatı və həmin tarixdə tamamlanan il üzrə mənfəət və zərər hesabatı, kapitalda dəyişikliklər hesabatı və pul vəsaitlərinin hərəkəti hesabatından, eləcə də əsas uçot prinsiplərinin xülasəsindən və digər izahedici qeydlərdən ibarət olan maliyyə hesabatları barədə, həqiqi və ədalətli rəy təmin edilməsi məqsədilə "İTALDİZAYN" Qapalı Səhmdar Cəmiyyətinin 2023-cü il üzrə apardığınız maliyyə hesabatlarının auditi ilə əlaqədar təqdim edilir. Bununla, biz Beynalxalq Maliyyə Hesabatları Standartlarına müvafiq olaraq maliyyə hesabatlarının düzgün təqdim edilməsi üzrə məsuliyyətimizi təsdiq edirik.
Eyni zamanda, biz aşağıda verilən məlumatlara cəmiyyət ilə bağlı məlumatların daxil edildiyini təsdiq edirik.

- Rəhbərlik və ya cəmiyyətin daxili nəzarətində əhəmiyyətli rola malik əməkdaşların aidiyyəti olduğu və ya maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərə bilən qanunsuzluqlar baş verməmişdir.
- Bütün mühasibat kitablarını və əlaqədar sənədləri Sizə təqdim edirik.
- Maliyyə hesabatlarında səhvlər, o cümlədən əhəmiyyətli səhvlər yoxdur.
- Cəmiyyət yerinə yetirməmə hallarında maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir göstərə biləcək müqavilənin bütün aspektlərini yerinə yetirmişdir. Tələblərin yerinə yetirilməməsi hallarında maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərə biləcək tənzimləyici orqanların tələblərinin yerinə yetirilməməsi hallarına yol verilməmişdir.
- Maliyyə hesabatlarında əks olunan aktivlərin və passivlərin təsnifatı və ya dəyərini əhəmiyyətli dərəcədə dəyişə bilən planlarımız və ya niyyətimiz yoxdur.
- Hər hansı inventarın həddən artıq istifadəsi və ya köhnəlməsinə səbəb olan digər plan və ya niyyətimiz yoxdur və heç bir inventar xalis real dəyərindən artıq məbləğdə göstərilmir.
- Cəmiyyətin bütün aktivlərə hüququ vardır və Cəmiyyətin aktivləri üzərində həbs qoyma və ya girov hüququ yoxdur.
- Həm potensial, həm də faktiki olmaqla bütün öhdəliklər müvafiq qaydada qeydə alınmışdır.
- Maliyyə hesabatlarında dövrün sonunadək düzəlişlərin aparılmasını tələb edən heç bir sonrakı hadisə baş verməmişdir.
- Mülkü iddia üzrə heç bir iddia qəbul edilməmişdir və ya qəbul edilməsi ehtimal edilmir.
- Nağd pul və ya investisiya hesablarımızdan heç birində rəsmi və ya qeyri-rəsmi təzminat üzrə sazişlər yoxdur.

**"İTALDİZAYN" Qapalı Səhmdar Cəmiyyətinin direktoru:**

**Rzayev Mirsəid Ağakamal oğlu**

**18 aprel 2024-cü il tarixli 001/24 saylı müqaviləyə əsasən aparılmış auditin nəticəsinə dair auditorun yekun sənədlərinin**

# TƏHVİL – QƏBUL AKTI

**Bakı şəhər** **28.06.2024-cü il**

Biz aşağıda imza edənlər:
İcraçı – Sərbəst Auditor Seyidov Elnur Sabir oğlu və Sifarişçi "İTALDİZAYN" Qapalı Səhmdar Cəmiyyətinin (VÖEN: 1500032761) direktoru Rzayev Mirsəid Ağakamal oğlu bu aktı ona görə tərtib edirik ki, İcraçı tərəfindən 18 aprel 2024-cü il tarixli 001/24 saylı müqavilənin şərtlərinə uyğun olaraq audit aparılmışdır.

Auditin nəticələrinə görə sifarişçiyə müstəqil auditorun hesabatı təhvil verilmişdir.

**Təhvil verdi:**
**İcraçı – Seyidov E.S.**

M.Y.

**Təhvil aldı:**
**Sifarişçi- Rzayev M.A**

M.Y.